# Auditor rəyi

## "Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinə

Mən, sərbəst auditor Zaur Akif oğlu Novruzov (Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 23 dekabr 2011-ci il tarixdə verilmlş SA/313 qeydiyyat saylı 072706 №-li lisenziya) ilə "Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyəti arasında bağlanmış 2013-cü il 15 yanvar tarixli 01/13-Z saylı müqaviləyə əsasən "Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyətinin 2012-ci il üzrə Balans hesabatının, bu tarixdə bitən il üzrə müvafiq Mənfəət və zərər, Pul vəsaitlərinin hərəkəti və İştirakçı kapitalında dəyişikliklər hesabatlarının auditini apardım.

Audit 2013-cü il 15 yanvar tarixdə başlayıb 01 fevral tarixində başa çatdı.

Cəmiyyətin rəhbərliyi göstərilən maliyyə (mühasibat) hesabatlarının milli mühasibat uçotu standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır.

Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə (mühasibat) hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müvafiq şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

Mənim vəzifəm apardığım audit əsasında həmin maliyyə (mühasibat) hesabatları üzrə rəy ifadə etməkdir. Mən auditi beynəlxalq audit standartlarına uyğun aparmışam. Bu standartlar məndən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yolverilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə (mühasibat) hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə ediməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə (mühasibat) hesabatlarının əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi mənim mülahizələrim əsasında aparılmışdır. Auditə, həmçinin, tətbiq edilmiş uçot prisiplərinin və cəmiyyətin rəhbərliyi tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə (mühasibat) hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin araşdırılması daxildir.

Mən hesab edirəm ki, əldə etdiyim auditor sübutları rəy bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

Mənim fikrimcə, 2012-ci il üzrə cəmiyyətin maliyyə (mühasibat) hesabatları milli mühasibat uçotuna uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Rəy 2013-ci il 02 fevral tarixində eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi təsərrüfat subyektində, ikincisi isə auditorda saxlanılır.

Azərbaycan Respublikası
Auditorlar Palatasının üzvü
Sərbəst auditor

Azərbaycan Respublikasının Auditorlar Palatası · Novruzov Zaur Akif oğlu · Sərbəst auditor · Independent auditor · Chamber of Auditors of Azerbaijan Republic

Z.A. Novruzov

02/02/2013